***Rəsmiyyə Heybətağaqızı***



# *Azərbaycan ordusu*

***Yurd-yuvanı necə verək düşmənə,***
***Hər birimiz əsgər olaq Vətənə.***
***İgid oğul boyun əyməz yetənə,***
***Qaçaq düşüb, gözümüzün yuxusu,***
***Marş irəli, Azərbaycan ordusu!***

***Bu dərd, kədər sinəmizə dağ çəkir,***
***Xain düşmən, o yerlərdə qan əkir.***
***Biz susduqca düşmən orda yol çəkir,***
***Dığaların yoxdu hələ qorxusu,***
***Marş irəli, Azərbaycan ordusu!***

***Haqq bizimdir, qalib gələk haqsıza,***
***Gərək şərin gözlərindən qan sıza.***
***Öz yerini biz göstərək qansıza,***
***Orda qalıb bənövşənin qoxusu,***
***Marş irəli, Azərbaycan ordusu!***

***Biz susduqca xain düşmən qudurur,***
***O yerlərdə neçə-neçə yurd durur.***
***İndi düşmən binə salır, ev qurur,***
***Hələ bizə diş qıcıyır çoxusu,***
***Marş irəli, Azərbaycan ordusu!***

***Daha vaxtdır, döyüşlərə atılaq,***
***Vaxt ötüşür, savaşlara qatılaq.***
***O yerləri düşmənlərdən biz alaq,***
***Qalıb orda qəlbimizin yarısı,***
***Marş irəli, Azərbaycan ordusu!***

---

Ədalət.- 2020.- 6 oktyabr. S. 7.